# Heydər Əliyev fenomeni

**Dünyada elə xalqlar var ki, Tanrı həmin xalqlara xilaskarlıq missiyasını həyata keçirmək üçün fenomenal liderlər bəxş edib. O liderlərin hər biri bütün ömrünü öz xalqının azadlığına, müstəqilliyinə, rifahına həsr edib.**




Xalqının sivil həyata qovuşması, bütün millətlərlə bir yerdə, öz ənənələrini qoruyub saxlamaq şərti ilə sülh və əmin-amanlıq şəraitində yaşamasını təmin etməyə, dünya xalqlarının milli mentalitet məfkurəsi ilə qaynayıb-qarışaraq, uca TANRININ yaratdığı İNSAN zirvəsinə yüksəlmək və formalaşmaq, dünyanın dərkində bütün düşünən beyinləri bir məqsəd ətrafında cəmləmək və "Qızıl dövr"ün yaradılmasında və həmin dövrdən gələcəyə doğru istiqamətlənən yolda bərabər fəaliyyət göstərmək kimi çağdaş təfəkkürün kristal zərrəciklərinin birləşərək möhkəmləndirilməsinə həsr edib.

Həmin xalqlardan biri də məhz Azərbaycan xalqıdır. Amerika xalqına C.Vaşinqtonu, alman xalqına Adenauru, fransız xalqına Ş. de Qollu, türk xalqına Atatürkü bəxş edən Tanrı Azərbaycan xalqına Heydər Əlirza oğlu Əliyevi bəxş etdi. Azərbaycan xalqının tarixində özünəməxsus və əvəzsiz xidmətləri ilə uca zirvəyə yüksələn ulu öndər Heydər Əliyev bütün varlığı ilə Azərbaycanın milli zəka atributuna çevrildi. O, həmişə xalqa Azərbaycanı necə sevməyi təlqin etmək üçün belə deyirdi: "Mən Azərbaycanı qəlbimlə, dilimlə, dinimlə və bütün varlığımla sevirəm!" Ulu öndər xalq qarşısında, mötəbər kürsüdən Azərbaycanlı olduğu ilə fəxr etdiyini qürurla söyləyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam! "

Heydər Əliyev insanları həyatı düzgün yaşamağa, dönməz əqidə sahibi olmağa, dəyişməz mövqe tutmağa çağırırdı. Adama elə gəlirdi ki, Heydər Əliyev hamını tanıyır, hər gün, bütün azərbaycanlıların hər biri ilə şəxsən görüşür. Bu hisslər xalqın ona olan sevgisinin təzahürüdür. Çünki Heydər Əliyevin xalq üçün etdiklərinin misli-bərabəri yoxdur. Mən bir incəsənət adamı kimi deyə bilərəm ki, 20-ci əsrin ikinci yarısından bu günə qədər başqa sahələrdə olduğu kimi elm, ədəbiyyat, mədəniyyət və incəsənət adamları da ən çox Heydər Əliyevin hakimiyyəti dövründə qayğı görmüş, dövlətin ən mötəbər mükafatlarını məhz Heydər Əliyevin hakimiyyəti dövründə almışlar.

Heydər Əliyevin gözlərində qılıncdan kəskin bir zəhm, müdrik və cəsur bir mübarizlik, həm də qəri-



bə bir ovsun var idi. Adam onun gözlərinə baxdıqca insanda həyat eşqi yaranırdı. Adama elə gəlirdi ki, dünyada həlli mümkün olmayan heç bir məsələ yoxdur. Eyni zamanda insan onun gözlərinə baxarkən sehrlənirdi. 1999-2000-ci illərdə mən Tiflis Dövlət Azərbaycan Dram Teatrının bərpa rəhbəri vəzifəsini daşıyarkən Azərbaycanın tranzit payının Gürcüstana hədiyyə olunmasını elan etmək üçün eks prezident E.Şevardnadzenin dəvəti ilə Tiflisə gələrkən Ulu Öndərlə görüşümüz zamanı ünsiyyətdə olduğum anlarda bütün qeyd etdiklərimi kifayət qədər sezə bildim. Daha sonra 2001-ci ildə cənab Eduard Şevardnadze Heydər Əliyevin Bakıda qonağı olarkən mən, hər iki lider qarşısında Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərindən dostluğu tərənnüm edən bir neçə bəndi həm gürcü, həm də Azərbaycan dillərində əzbər söyləməklə çıxış edərkən, hər iki prezidentin məni təbriki zamanı ümummilli liderin gözlərindən aldığım ilham qaynağı mənə xalqımızın böyük oğlu, görkəmli siyasi xadim Heydər Əliyev haqqında "Böyük Turanın Himni" və "Müstəqil Vətənin Memarı" poemalarını yazmağa stimul oldu.

25 noyabr- 4 dekabr 2009-cu il tarixlərində Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayevin xüsusi təşəbbüsü və qayğısı ilə həyata keçən, Gürcüstanda yaşayan soydaşlarımızla görüş məqsədi daşıyan geniş qastrol səfəri zamanı Aqşin Babayevin ulu öndər Heydər Əliyevə həsr olunmuş "Xilaskar" əsərinin tamaşasında tamaşaçılar arasında olan, Heydər Əliyevin yaxın dostu və silahdaşı cənab E.Şevardnadzenin yaxınlaşıb bizi ürəkdən təbrik etməsi, Heydər Əliyevin bədii obrazının ifaçısı olaraq məni və kollektivimizi öz iqamətgahına qonaq dəvət etməsi və 2 dekabrda baş tutan bu görüşdə Heydər Əliyev haqqında böyük sevgi ilə danışdığı xatirələr və ali fikirlər mənim yaddaşımda ən mötəbər hadisə kimi əbədi yaşayacaqdır.

Cənab Eduard Şevardnadze bütün görüşü Heydər Əliyevin fenomenal cəhətlərinə həsr etdi. "Yaxşı ki, siz Heydər Əliyevin bədii obrazını səhnəyə gətirmisiniz. Heydər Əliyev təkcə Azərbaycanın deyil, ümumqafqazın lideri idi. O, SSRİ kimi nəhəng ölkənin ən qüdrətli, tayı-bərabəri olmayan rəhbərlərindən biri idi. Ölkədə birinci şəxs miqyasına ucalmışdı. Elə ona görə də ölkə rəhbərliyinin ona qısqanclıq göstərdiyinin və onun vəzifədən uzaqlaşdırılmasında böyük canfəşanlıq etdiyinin hamımız şahidiyik. Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişi bütün Qafqaz, o cümlədən Gürcüstan üçün böyük əhəmiyyət kəsb etdi. O, Qafqaz üçün çox böyük və təmənnasız işlər gördü.

Təkcə Bakı-Tiflis-Ceyhan neft boru xəttinin nə qədər böyük siyasi gediş olduğunu demək kifayət edər. Burada həm regional, həm də beynəlxalq bir mahiyyət öz həllini tapdı. Bu məsələnin Gürcüstan üçün əhəmiyyəti isə ölçüyə gəlməz dərəcədə dəyərlidir. Azərbaycana düşən tranzit payının Gürcüstana hədiyyə olunması isə gürcü xalqı üçün misli-bərabəri olmayan bir addımdır. O çox böyük insan idi..."

Elə buradaca mənim yadıma "Müstəqil Vətənin Memarı" poemasındakı bir bənd düşdü:

***Əsrin neft kontraktı***
***Cəsarətdən doğuldu.***
***Bakı, Tiflis və Ceyhan***
***Müqəddəs amal oldu.***

Görüşdən sonra biz, cənab E.Şevardnadzenin iqamətgahının həyətində dəfn olunmuş xanımının qəbrini ziyarət etdik. Ziyarət zamanı bir anlıq sükutda mənim gözlərim önündən Ulu Öndərin Zərifə xanıma və Zərifə xanımın Ulu Öndərə ülvi məhəbbəti canlandı:

***Gələndə "Heydər!" dedi,***
***Oxşadı uşaq kimi.***
***Gedəndə "Heydər!" dedi,***
***Yola saldı şah kimi.***
***Dillərdə dastan oldu,***
***Heydər-Zərifə eşqi.***
***Cahanda cahan oldu,***
***Heydər-Zərifə eşqi.***

Bəli, böyük insanların bütün əməlləri kimi məhəbbətləri də nümunəvi olur. Heydər Əliyev bütün məsələlərdə hər kəsə nümunə idi. İstər siyasətdə, istər bilikdə, istər zəkada, istər idarəçilik bacarığında, istər azərbaycançılıq ideologiyasında, əqidə mövqeyində, xalq sevgisində, eşqdə, insani keyfiyyətlərdə və sadalanacaq saysız-hesabsız meyarlarda...

Heydər Əliyev hər bir azərbaycanlı kimi mənim də həyatımda böyük rol oynayıb. 1977-ci ildə məhz onun nəzarəti ilə ali məktəblərə qəbul məsələsində neqotiv hallara qarşı aparılan mübarizə nəticəsində M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda aparılan kadr islahatları zamanı mən öz biliyimin gücünə instituta daxil ola bildim. Və mən Gürcüstanda yaşadığım orta məktəb illəri dövründə bütün orada yaşayan insanlar kimi qəlbimdə hər an böyük məhəbbət bəslədiyim Heydər Əliyevi hər an öz yanımda hiss edirdim. Elə bir şadyanalıq məclisi, toy-düyün olmurdu ki, o məclisdə hamı, ayaqüstə Heydər Əliyevin şərəfinə badə qaldırmasın. Hətta valideynlər öz övladlarını hərbi xidmətə yola salarkən belə Heydər Əliyevi xatırlayır və oğullarına ona oxşamağı tövsiyə edirdilər.

Heydər Əliyev demək olar ki, Gürcüstanda yaşayan azərbaycanlıların and yerinə yüksəlmişdi. Biz Heydər Əliyev fenomeni ilə hər zaman qürurlanmışıq. İndi də dünyanın hər yerində yaşayan hər bir azərbaycanlı kimi Gürcüstanda yaşayan azərbaycanlılar da Heydər Əliyev fenomeni ilə qürurlanır və ona olan sevgi günbəgün artır.

Mən fəxr edirəm ki, Heydər Əliyevin müasiriyəm. Heydər Əliyev şəxsiyyətindən bəhrələnmişəm. Və onun bədii obrazını istər poemamda, istərsə də səhnədə canlandırarkən Ulu Öndərin ziyasından aldığım ilham mənə bu yaradıcılıq işlərinin kamilliklə ərsəyə gəlməsində böyük stimul oldu.

Ümummilli liderimiz Heydər Əliyevin bir sıra böyük tarixi şəxsiyyətlərlə bərabər sırada dayandığını diqqətə çatdırdım. Lakin qeyd etməliyəm ki, Heydər Əliyevin o tarixi şəxsiyyətlərdən fərqli üstün bir cəhətini unutmamaq lazımdır. C.Vaşinqton, Adenaur, Ş. De Qol, M.K.Atatürk kimi dühalar dövlət quruculuğunda, xalqı qarşısında mötəbər dövlətçilik mövqeyi nümayiş etdirməklə kifayətləndilər. Heydər Əliyev isə bütün həyatı boyu ömrünü həsr etdiyi Azərbaycan xalqının tarixində iki böyük və vacib missiyanı həyata keçirə bildi. Həm müstəqil dövlətimizi yaratdı, bu yolda parlaq şəkildə quruculuq işi apardı, dövlətin siyasi kursunun gələcək günlərə aparan yolunu müəyyənləşdirdi, həm də bir çox tarixi şəxsiyyətlərdən fərqli olaraq özündən sonra qurulmuş dövlətin naşı əllərə düşərək çökməsi təhlükəsinin qarşısını almaq kimi vacib məsələni yoluna qoya bildi. Özündən sonra, qaranti üçün özünə bərabər bir lider yetişdirə bildi. Və bu mühüm məsələ də bu gün öz bəhrəsini verməkdədir:

***Müstəqil Vətənimiz-***
***İşıqlı, nurlu sabah.***
***Onu Heydər yaratdı!***
***Sabaha İLHAMLA bax!***

Heydər Əliyev fenomeni bizim milli idrak sərvətimizdir. Məncə, Heydər Əliyevə bənzəmək istəyi bizim gələcək nəslin amalı olmalıdır. Nə qədər Heydər Əliyevə bənzəmək istəyən gənclərimiz çox olsa, xalqımız bir o qədər Heydər Əliyevlər yetirməyə qadir olar. Bu da xalqımızın dünya xalqları sırasında hər zaman irəlidə olmaq meyarını özündə saxlamaq imkanı yaradar.

**● İftixar PİRİYEV,**
**Əməkdar mədəniyyət işçisi**